# Azərbaycan gəncləri 20 Yanvar faciəsi ilə bağlı öz mövqelərini dünyaya bəyan ediblər



Yeni Azərbaycan Partiyası Gənclər Birliyi (YAP GB) 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan anım mərasimi keçirib.

YAP GB-dən AZƏRTAC-a bildiriblər ki, anım tədbirində Azərbaycanın dövlət bayrağını əllərində tutan gənclər "Əbədi məşəl" abidəsi önündə maraqlı kompozisiya təşkil edərək ölkə gəncliyinin 20 Yanvar faciəsi ilə bağlı mövqeyini dünyaya bəyan ediblər.

Gənclər Şəhidlər xiyabanında 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edərək məzarları üzərinə qərənfillər düzüblər.